## *Qızıl ordu – ana fəryadı*

Ey şəninə şer yazıb,
Nəğmə qoşub,
Yollarına al çiçəklər tökdüyünüz,
Adlarını ipəklərə bükdüyümüz
"Qəhrəmanlar" !
Nədir tökdüyünüz qanlar?
Dar ayaqda, çətin gündə,
Faşistlərlə ölüm-dirim döyüşündə
Sizə arxa, dayaq olan,
Cavanları, qocaları
Zavodlarda sübhə kimi oyaq olan
Bir millətə nədir bunca
Verdiyiniz ittihamlar!
Nədir tökdüyünüz qanlar?
Nədir bizim günahımız?
Biz nə zaman bir millətin
Sərhədinə basqın edib,
Torpağını zəbt etmişik?
Biz nə zaman qonşumuza
Qəsd etmişik?
Biz ki daim qardaş olduq,
Dar ayaqda yoldaş olduq
Millətlərə.
Bununçünmü düşürük bu zillətlərə?
Nədir bu tökülən qanlar?
Mən bir ana fəryadıyla
İndi sizi, dərdimizi
Dinləməyə çağırıram
Ey insanlar!
Ey insanlar!

1990

Mirvarid Dilbazi